1_Layout 1 14.03.2024 8:54 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 5 (669)

15 mart
2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AZƏRBAYCAN–QAZAXISTAN: SADİQ DOSTLAR, ETİBARLI TƏRƏFDAŞLAR

**"Xalq qəzeti"nin müxbiri Vaqif Bayramovun müəllifi olduğu "Azərbaycan-Qazaxıstan: sadiq dostlar, etibarlı tərəfdaşlar" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Azərbaycan-Qazaxıstan əməkdaşlığı strateji tərəfdaşlıq münasibətləri əsasında inkişaf edir. Belə bir vəziyyət Xəzər hövzəsi regionu, Orta Asiya-Cənubi Qafqaz və Türk Dövlətləri Təşkilatı coğrafiyasında əhəmiyyətli dəyişikliklərə müsbət təsir göstərir. Bakı-Astana arasında mövcud səmimi əlaqələr, eyni zamanda, Orta Dəhliz layihəsinin inkişafını da sürətləndirir. Bununla yanaşı, hər iki ölkənin zəngin enerji daşıyıcıları potensialına malik olması da strateji tərəfdaşlıq münasibətlərini getdikcə möhkəmləndirir.

Prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayevin iştirakı ilə martın 11-də keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasında, Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimində və dövlət başçılarının mətbuata bəyanatlarla çıxışlarında bütün bunlar barədə ətraflı söhbət açılıb, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, ikitərəfli münasibətlərin gündəliyinin geniş olduğu diqqətə çatdırılıb.

Dövlət başçılarının Azərbaycan və Qazaxıstana qarşılıqlı səfərləri zamanı əldə edilən razılıqların uğurla həyata keçirildiyini, eyni zamanda, həmin razılıqların icrasının daim diqqətdə saxlanıldığını bildirən prezidentlər tərəfindən bu, ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirilib.

Prezident İlham Əliyev mətbuata bəyanatında ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlıq, o cümlədən Xəzər hövzəsində və daha geniş coğrafiyada səmərəli əməkdaşlıq üçün böyük önəm daşıdığını bildirib. Ölkə rəhbəri bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu söyləyib, bütün bunların ticarət dövriyyəsinin həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə genişmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini diqqətə çatdırıb. Ölkəmizin rəhbəri Prezident Kasım-Jomart Tokayevin dövlət səfərinin dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Azərbaycan-Qazaxıstan əməkdaşlığı yeni inkişaf dövrünü yaşayır. Bu mərhələnin əsası isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin 2022-ci ildə Azərbaycana rəsmi səfərinin nəticələrinə əsasən, "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"sinin qəbul edilməsi ilə başlayır. İndiki dövrdə iki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Siyasi, ticarət-iqtisadi, tranzit-nəqliyyat, enerji, kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində sistemli layihələr gerçəkləşdirilir.

İki ölkə arasında strateji əməkdaşlığın inkişafına müsbət təsir göstərən normativ-hüquqi bazanın tədricən genişlənməsi nəticəsində təkcə 1 il 6 ay ərzində 40-a yaxın mühüm ikitərəfli sənəd imzalanıb. Bu, müxtəlif sahələrdə, o cümlədən iqtisadi sektorda qarşılıqlı fəaliyyəti gücləndirib. Nəticədə 2020-ci ildən etibarən ölkələrimiz arasında ticarət dövriyyəsi təxminən 5 dəfə (109 milyon dollardan 529 milyon dollara) yüksəlib. Təkcə keçən il ərzində ticarət dövriyyəsinin həcmi 314 milyon təşkil edib.

İndiyə kimi Azərbaycan Qazaxıstana 211,4 milyon dollar, Qazaxıstan isə Azərbaycan iqtisadiyyatına 114 milyon dollar investisiya yatırıb. Ümumiyyətlə, 2005-2023-cü illər ərzində qarşılıqlı investisiya qoyuluşunda da artım müşahidə edilib. Bu dövrdə Qazaxıstanda qeydə alınan 1065 Azərbaycan şirkətinin yatırdığı sərmayənin həcmi 381 milyon dollar olub. Azərbaycanda qeydə alınan 150 Qazaxıstan şirkətinin qoyduğu investisiyanın həcmi isə 117 milyon dollara yüksəlib.

Azərbaycan-Qazaxıstan əməkdaşlığında qarşılıqlı yükdaşımaların artımı da diqqət çəkib. Əlbəttə, bu məsələdə son 3 ildə iki ölkə arasında avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımaları üçün mübadilə edilən "İcazə" blanklarının sayının beş dəfə artması əhəmiyyətli rol oynayıb.

Yeri gəlmişkən, ölkələr arasında beynəlxalq avtomobil daşımaları üzrə Qarışıq Komissiyanın bu il mart ayının 6-da keçirilən növbəti iclasında tərəflərin qarşılaşdıqları çətinliklər və onların həlli yolları müzakirə olunub. Həmçinin Orta Dəhlizin davamlı inkişafının təmin olunması üçün Çindən göndərilən tranzit yüklərin hər iki ölkə daşıyıcıları tərəfindən daşınması üçün təşkilati işlərin görülməsi barədə razılıq əldə edilib.

Bütün bu və digər həyata keçirilən tədbirlər nəticəsində 2023-cü ildə iki ölkə arasında yükdaşımaların həcmi 1,5 dəfə artaraq 4,3 milyon ton təşkil edib. Orta Dəhliz üzrə həcm isə 65 faiz artaraq 2,8 milyon tona çatıb. Belə yüksək göstəricilərin əldə edilməsini isə Azərbaycan-Qazaxıstan İşgüzar Şurası çərçivəsində sıx əməkdaşlıq, həmçinin ticari-iqtisadi münasibətlərin stimullaşdırılması tədbirləri, Qazaxıstan şirkətlərinin Ələt azad iqtisadi zonasına (AFEZ) cəlb edilməsi, habelə AFEZ ilə Qazaxıstanın azad iqtisadi zonaları arasında qarşılıqlı əməkdaşlığın qurulması şərtləndirib.

Azərbaycan-Qazaxıstan İnvestisiya Fondunun yaradılması, sənaye və texnologiya parklarında birgə istehsalın təşkili, Ələt limanında taxıl terminalının inşası, gəmiqayırma sektorunda əməkdaşlığın qurulması, qazax şirkətlərinin azad edilmiş ərazilərin bərpasında iştiraklarına əlverişli imkan yaradılması kimi məsələlər də ikitərəfli əlaqələrin daha da güclənməsinə öz müsbət təsirini göstərib. Bu baxımdan Füzulidə 600 şagird yerlik "Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi"nin inşası, həmçinin xəstəxananın tikintisinin planlaşdırılması xüsusilə diqqət çəkib.

Hər iki ölkə son illərdə bütün region üçün mühüm önəm daşıyan bir sıra layihələrin icrasına fəal qoşulub. Məsələn, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) imkanlarının genişləndirilməsi, Xəzərin dibi ilə fiber-optik rabitə xəttinin və enerji kabelinin çəkilməsi, Azərbaycan vasitəsilə neft və uranın ixracı, habelə Qazaxıstandan Azərbaycan bazarına buğda tədarükünün reallaşdırılması istiqamətindəki təşəbbüslərin diqqət mərkəzində saxlanılması nəticəsində Azərbaycan-Qazaxıstan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Yeri gəlmişkən, ölkələrimizin Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsindəki fəaliyyətinə də nəzər salmaq istərdik. Bununla bağlı xatırladaq ki, hər iki dövlət TDT-nin təsis olunmasında, qurulmasında fəal iştirak edib.

Ötən 15 il ərzində TDT beynəlxalq arenada tanınaraq nüfuzlu aktora çevrilib. Bu müddətdə təşkilat üzvləri tərəfindən Türk dünyasının konturları yeni geosiyasi reallıq kimi müəyyənləşdirilib və potensialı yüksək dəyərləndirilib.

Hər iki dövlət Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) həm region, həm də bütün dünya ölkələri üçün əhəmiyyətinin artırılması, potensialının ölkələrimizin iqtisadiyyatının inkişafına yönəldilməsi istiqamətində nəzərdə tutulan layihələri uğurla gerçəkləşdirir, logistika-nəqliyyat potensialının gücləndirilməsi istiqamətində fəal siyasət yürüdür.

Bu fikrin bariz ifadəsi olaraq deyə bilərik ki, 2022-ci ilin sonlarında Aktauda Azərbaycan, Qazaxıstan, Türkiyə ərazilərində "Orta Dəhlizin inkişafı üzrə 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsi" imzalanıb. Xəzər sahillərindəki dəniz limanlarımızın genişmiqyaslı müasirləşdirilməsinə başlanılıb.

Ümumiyyətlə, Orta Dəhliz böyük potensiala malikdir və təbii ki, bu mühüm layihənin həyata keçirilməsində Qazaxıstanla Azərbaycanın rolu olduqca böyükdür. Bu arteriyanın inkişafı ticarət dinamikasının genişlənməsinə töhfə verməklə yanaşı, Şərqlə Qərb arasında əlaqələndirici körpü kimi ölkələrimizin mövqeyini möhkəmləndirir.

## DAXİLİ İŞLƏR NAZİRİ XİDMƏTƏ QƏBULLA BAĞLI NÖVBƏTİ SIRA BAXIŞI KEÇİRİB





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 5-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 210 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 28 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

# 12 MART DAXİLİ QOŞUNLAR GÜNÜDÜR!

## E.Ə.Məmmədova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq qərara alıram:

Polkovnik Elçin Əli oğlu Məmmədova "general-mayor" ali hərbi rütbəsi verilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2024-cü il.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Ələkbərov Nicat Vaqif oğlu – polkovnik
Abdulkərimov Tural Akif oğlu – polkovnik-leytenant
Əliyev Telman Elyaz oğlu – polkovnik-leytenant
Həsənov Əli Vaqif oğlu – polkovnik-leytenant
Qurbanov Anar İsa oğlu – polkovnik-leytenant
Məmmədov Xəyyam Loğman oğlu – polkovnik-leytenant
Ağayev Nemət Mir Tahir oğlu – mayor
Əliyev Rasim Nurməmməd oğlu – mayor
Quliyev Malik Əlipənah oğlu – mayor
Məhərrəmov Sətdar Razim oğlu – mayor
Niftəliyev Ayaz Tofiq oğlu – mayor
Məmmədov Bilal Şahin oğlu – kapitan.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2024-cü il.

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ ŞƏXSİ HEYƏTİNƏ





Yarandığı gündən şərəfli bir xidmət yolu keçən Daxili Qoşunlar Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında dövlətçiliyin sütunlarından biri kimi formalaşmış, öz məsul vəzifələrini həmişə layiqincə yerinə yetirmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində daim inkişafda olan Qoşunlar qanunla müəyyən edilmiş funksiyalarını bu gün də əzmlə həyata keçirərək respublikada asayişin qorunmasında, ictimai təhlükəsizliyin təmin edilməsində və silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində yüksək peşəkarlıq nümunələri göstərir.

Əsgər və zabitlərimizin Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsi dövründə, eləcə də lokal antiterror əməliyyatı zamanı Qarabağ bölgəsinin işğaldan azad edilməsi uğrunda rəşadətlə döyüşməsi isə Qoşunların tarixinin ən şərəfli səhifəsinə çevrilmişdir.

Azərbaycan Respublikasına xidmətdə fərqlənənlərin dəfələrlə dövlət təltiflərinə layiq görülməsini Möhtərəm Prezidentin Qoşunların şəxsi heyətinin fədakar əməyinə verdiyi ali dəyərin və etimadının əyani ifadəsi kimi xüsusi qeyd edir və əmin olduğumu bildirirəm ki, siz bundan sonra da hərbi andа sadiq qalaraq vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən müdafiəsində səy və bacarığınızı əsirgəməyəcəksiniz.

Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə sizi, hörmətli veteranlarımızı, Vətən müharibəsində və xidməti vəzifələri yerinə yetirərkən şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edir, hamınıza möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, xidmətdə uğurlar arzulayıram!

**Vilayət Eyvazov**
Azərbaycan Respublikasının daxili işlər naziri
general-polkovnik

11 mart 2024-cü il.

## VƏTƏNƏ, DÖVLƏTƏ, XALQA SƏDAQƏT NÜMUNƏSİ







**Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümünü qeyd edir. Bu münasibətlə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Daxili Qoşunların rəhbər heyəti və hərbi qulluqçuları Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

**Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.**

Həmin gün Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov Milli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla diqqətə çatdırıb.

Nazir Daxili Qoşunların qarşıya qoyulan döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməklə, Müzəffər Ali Baş Komandanın əmri ilə Vətən müharibəsi zamanı və ötən il keçirilən lokal antiterror tədbirlərində hərbi qulluqçularımızın fədakarlıq göstərdiklərini qeyd edib.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, cənab Prezidentin imzaladığı müvafiq sərəncamları ilə bir qrup hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir V.Eyvazov onu da qeyd edib ki, məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, zəruri olan vasitələrlə təchiz edilib.

Bu gün işğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları ilə birgə Qoşunların hərbi qulluqçularının peşəkar xidmətini vurğulayan nazir Vilayət Eyvazov daxili işlər orqanlarının şəxsi heyətinin vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin keşiyində qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edib.

Tədbirə yekun vuran nazir V.Eyvazov Daxili Qoşunların qarşısında duran başlıca vəzifələrini qeyd edərək tapşırıq və tövsiyələrini verib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunaraq mükafatlar sahiblərinə təqdim edilib.







**DİN-in Mətbuat xidməti**

3_Layout 1 14.03.2024 9:14 Page 1



# DAXİLİ QOŞUNLARIN KEÇDİYİ YOL VƏTƏNPƏRVƏRLİK VƏ FƏDAKARLIQ NÜMUNƏSİDİR

Artıq 32 ildir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları zəngin xidmət təcrübəsi toplayaraq üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Bu gün Daxili Qoşunlar xalqımızın təhlükəsizliyi və dövlətçiliyimizin qorunması naminə fədakar xidmətini davam etdirməkdədir.



Ötən illərdə Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqların icrasına böyük məsuliyyətlə yanaşıb və ona göstərilən yüksək etimadı peşəkar xidməti-döyüş fəaliyyəti ilə doğrultmağa çalışıb. Yaradıldığı gündən daim dövlətin və dövlətçiliyin keşiyində yenilməz əzmkarlıqla dayanan Daxili Qoşunların inkişaf və yüksəliş yolunun təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində Daxili Qoşunlar müasir maddi-texniki bazaya, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Daxili Qoşunların fəaliyyəti keyfiyyətcə yeni mərhələyə yüksəlib, mövcud potensial daha da gücləndirilib, hərbi infrastruktur yenilənib, müasir tipli silahlar, texnikalar alınıb, şəxsi heyətin maddi təchizatı və sosial rifahı daha da yaxşılaşdırılıb.

Daxili Qoşunlar ötən müddətdə ölkə daxilində ictimai təhlükəsizliyin təmin olunması ilə yanaşı, Vətənin müdafiəsində də iştirak edib. Birinci Qarabağ müharibəsi dövründə hərbi qulluqçularımızın döyüşlərdə göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz iz qoyaraq tarixləşib.




Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-ci il martın 9-da imzalanmış Fərmana uyğun olaraq, 12 mart tarixi Daxili Qoşunlar Günü elan olunub. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərə ilk dəfə olaraq 1992-ci ilin mart ayının 12-də başlayıb.

Daxili Qoşunların 9 nəfər hərbi qulluqçusu “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Onlardan 8 nəfəri bu fəxri adla ölümündən sonra təltif edilib. Kapitan Ənvər Arazov, baş leytenant Elşad Yəhyayev, baş leytenant Mətləb Quliyev, baş leytenant Fəxrəddin Nəcəfov, baş leytenant Rövşən Abdullayev, çavuş İqor Makeyev, əsgər Səxavət Məhərrəmov və əsgər Ruslan Muradov Birinci Qarabağ müharibəsi zamanı ərazi bütövlüyümüzün bərpası uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə şəhidlik zirvəsinə ucalıblar. Müharibə sınaqlarından keçərək ağır yaralanmış və əlil olmuş Sahil Məmmədov isə bu gün istefada olan polis polkovnikidir.

Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 681 nəfər həlak olub, 5 nəfər itkin düşüb və 1179 nəfər isə yaralanıb.

Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, uzunmüddətli atəşkəs dövründə qoşunların xidməti fəaliyyəti ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına, silahlı cinayətkarların zərərsizləşdirilməsinə, mühüm dövlət obyektlərinin mühafizəsinə yönəlib, onun təyinatından irəli gələn vəzifələrin icrası ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilib, xarici ölkələrin müvafiq qurumları ilə hərbi əməkdaşlıq əlaqələri qurulub, geniş quruculuq işləri aparılıb, Daxili Qoşunların tərkibində Ali Hərbi Məktəb, təlim mərkəzləri, helikopter eskadrilyası yaradılıb.



2002-ci ildə Daxili Qoşunların emblemi və döyüş bayrağı haqqında əsasnamələr, habelə onların təsvirləri təsdiq olunub.

Hərbi qulluqçularımız təlim və məşğələlərdə öz döyüş qabiliyyətlərini yüksəldərək torpaqlarımızın işğaldan azad olunması kimi müqəddəs missiyanın yerinə yetirilməsinə hazırlaşıblar.



2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini veriblər. Ön cəbhənin müxtəlif istiqamətlərində Daxili Qoşunların şəxsi heyəti düşmənə qarşı igidliklə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirib. Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər isə yaralanıb.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusu - polkovnik Yusibov Zəfər Qəzənfər oğlu, polkovnik İmrəliyev Füzuli Şiraslan oğlu, polkovnik-leytenant Bədəlov Nicad Mehman oğlu və mayor Qaflanov Şixamir Oruc oğluna (ölümündən sonra) “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib.

2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Respublikasının Qarabağ iqtisadi zonasında Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həyata keçirdikləri lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan ordusunun tör-töküntülərinə və silahlanmış separatçılara ağır zərbələr vurulub. Uğurla həyata keçirilən bu tədbirlər nəticəsində bölgədə erməni separatizminə son qoyulub. Antiterror tədbirlərində igidlik göstərən Daxili Qoşunların şəxsi heyətindən 12 nəfər şəhid olub, 24 nəfər isə yaralanıb və xəsarət alıb.

Daxili Qoşunların xidməti-döyüş fəaliyyəti Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun və Daxili Qoşunların komandanlığının daim nəzarətindədir. İstər cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, istərsə də mühüm dövlət obyektlərinin mühafizəsində şəxsi heyət müsbət nəticələr əldə edib. Əlbəttə ki, bu uğurlar bilikli və bacarıqlı komandir heyətinin rəhbərliyi altında idarəçiliyin, yüksək döyüş hazırlığının və təlimlərin hesabına ərsəyə gəlib.

Daxili Qoşunlarda bu gün ciddi nizam-intizam hökm sürür, şəxsi heyətin mənəvi-psixoloji durumu qənaətbəxşdir. Şəxsi heyət Prezidentə, dövlətə, xalqa məhəbbət və sədaqət ruhunda tərbiyə olunur. Hərbi hissələrin döyüş qabiliyyəti kifayət qədər yüksəkdir.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olaraq, respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak edib. Hərbi qulluqçularımız işğalına son qoyulan torpaqlarımızda polis əməkdaşları ilə birgə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində yüksək peşəkarlıq göstərərək, dövlət əhəmiyyətli müxtəlif xidməti-döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlirlər. Bu da Daxili Qoşunların cəmiyyətdə nüfuzunu artırır və vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır.

**mayor Anar Əhmədov**

## BAYRAM MÜNASİBƏTİLƏ ŞƏHİD AİLƏLƏRİNİN ÜZVLƏRİ TƏBRİK EDİLİB




Şəhid ailələrinə diqqət və qayğı göstərilməsi Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən daim xüsusi nəzarətdə saxlanılan məsələdir. Bu məqsədlə mütəmadi olaraq müxtəlif tədbirlər həyata keçirilir. Vətən naminə həyatını qurban vermiş şəhidlərin əzizlərinin bayram günlərində təbrik edilməsi müsbət bir ənənə kimi formalaşaraq, bu şəxslərə mənəvi dəstəyin təzahürüdür.

Martın 8-də Beynəlxalq Qadınlar Günü münasibətilə Naxçıvan Muxtar Respublikasının sakinləri olan şəhid ailələrinə baş çəkilib. Belə ki, 12565 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçısı mayor Orxan Seyidovun rəhbərliyi ilə bir qrup şəxsi heyət Naxçıvan şəhərində, Culfa rayonunun Camaldın, Yaycı kəndlərində yaşayan şəhidlər kapitan Şamil Babayevin anası Atikə Babayeva və həyat yoldaşı Fatimə Babayeva, gizir Vaqif Rəcəbovun anası Məryəm Rəcəbova, çavuş Sahib Məmmədovun anası Çiçək Məmmədova ilə görüşüb. Bayramla əlaqədar xanımları təbrik edən hərbi qulluqçularımız tərəfindən onlara gül dəstələri təqdim olunub. Görüş zamanı şəhidlərin ailə üzvlərinin müraciətləri dinlənilərək qeydə alınıb.

Şəhidlərin ailə üzvləri bayram təbrikinə, ümumilikdə göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını ifadə ediblər.

**12565 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## ŞƏHİD KOMANDİRİN XATİRƏSİNƏ EHTİRAM

Müharibələr haqqında danışıldıqda belə bir ifadə səsləndirilir: “heç kəs unudulmur, heç nə yaddan çıxmır”. Son nəfəslərinədək hərbi anda sadiq qalaraq respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş silahdaşlarımız bizim qəlblərimizdə yaşayırlar. Onları yad etmək hər birimizin mənəvi borcudur.

Martın 10-da şəhid hərbi qulluqçumuz polkovnik-leytenant Rəşad Hüseynovun doğum günü idi. Yaşasaydı, 44 yaşına qədəm qoyacaqdı. O, ötən il sentyabrın 20-də Kəlbəcər rayonunun Vəngli kəndi (hazırda Ağdərə rayonuna daxildir) istiqamətində antiterror tədbirləri üzrə döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.




Şirvan şəhərində şəhidin doğum günü münasibətilə onun xatirəsi anılıb. Belə ki, Şirvan şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasovun, şəhər polis şöbəsinin rəisi polis polkovniki Füzuli Əhmədovun, 25032 saylı hərbi hissənin komandanlığı və bir qrup şəxsi heyətinin, ictimaiyyət nümayəndələrinin, habelə şəhidin ailə üzvlərinin, digər şəhidlərin doğmalarının iştirakı ilə Şirvan şəhərinin Şəhidlər xiyabanında yerləşən “Şəhid anası” memorial kompleksi önünə əklil qoyulub. Əbədiyyətə qovuşmuş Vətən mübarizlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra polkovnik-leytenant Rəşad Hüseynovun məzarı ziyarət olunaraq üzərinə gül dəstələri qoyulub, ruhuna dualar oxunub.

İcra hakimiyyətinin başçısı İ.Abbasov tədbirdə çıxış edərək şəhidlik zirvəsinin müqəddəsliyindən, xalqımızın torpağa tapşırılan hər bir igid oğlunun xatirəsinə göstərdiyi dərin ehtiramdan, şəhid ailələrinin dövlət qayğısı ilə əhatə olunmalarından danışıb. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz düşmən üzərində şanlı qələbə qazanaraq torpaqlarımızın işğalına son qoyub. Bu gün qalib dövlətdə yaşamağımıza görə şəhidlərimizə və qazilərimizə borcluyuq. İ.Abbasov şəhidlərimizə Allahdan rəhmət, ailələrinə isə səbr diləyib.



25032 saylı hərbi hissənin komandiri polkovnik Rəşadət Süleymanov öz çıxışında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Birinci Qarabağ müharibəsi, 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri zamanı çətin döyüş sınaqlarından ləyaqətlə keçdiyini diqqətə çatdırıb, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hərbi qulluqçularımızın xidməti-döyüş fəaliyyətlərinə, Vətənin müdafiəsində göstərdikləri fədakarlıq nümunələrinə yüksək qiymət verdiklərini vurğulayıb.

Komandir peşəkar, vətənpərvər zabit olmuş polkovnik-leytenant R.Hüseynovun şərəfli xidmət və döyüş yolu barədə məlumat verib, belə dəyanətli hərbi qulluqçularımızın yaddaşımızda silinməz iz qoyduqlarını deyib.

Şəhidin qızları Rəşidə və Xədicə tədbirdə atalarının xatirəsinə həsr olunan şeir səsləndiriblər.

Şəhidin atası Rəhim Hüseynov oğlu haqqında ürək sözlərini söyləyib. O, tədbir iştirakçılarına Rəşadın xatirəsinə göstərdikləri ehtirama görə ailəsi adından dərin minnətdarlığını ifadə edib.

**Yalçın Abbasov**

# KOMENDANT BÖLÜYÜ HƏRBİ HİSSƏNİN MÜHAFİZƏSİNİ TƏMİN EDİR

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə döyüş bayrağının, anbarların



və hərbi hissənin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 16075 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.

Bölük komandiri baş leytenant Zaur Mehtiyev bölüyün qarşısına qoyulan tapşırıqların əhəmiyyətini diqqətə çatdırdı. Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu və döyüş xidmətinə seçilən hərbi qulluqçuların hər birinin olduqca diqqətli və əzmkar olmalarını xüsusilə bildirdi. Onun fikrincə, yüksək fiziki hazırlığa, geniş hərbi savada malik, eləcə də mənəvi cəhətdən sağlam olan hərbi qulluqçu əzmkar döyüşçüdür. Mütəmadi olaraq şəxsi heyətlə aparılan işin nəticəsidir ki, 2023-cü ilin II yarımilinin yekunlarına görə komendant bölüyü hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.




Baş leytenant Z.Mehtiyev komandir kimi şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və nizam-intizamının möhkəmləndirilməsi üçün əzmlə çalışır. Tələbkarlığı ilə yanaşı, şəxsi heyətdən diqqət və qayğısını da əsirgəmir. Hərbi qulluqçuların döyüş təliminin təkmilləşdirilməsi, peşəkarlığının artırılmasında bölük komandirinin müavini leytenant Rəhim Alməmmədovun əməyinin olduğunu xüsusi qeyd edən bölük komandiri onun verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşdığını bildirdi.

Şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsində, fəalların seçilməsində və təlimatlandırılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsini müvəqqəti icra edən leytenant Fəqan Səfərli bacarıqlı zabit kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Qarovul xidmətinə çıxan hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili məsələsinin önəmindən danışan leytenant F.Səfərli




bunun üçün hərbi hissədə lazımi şəraitin yaradıldığını söylədi.

Baş leytenant Z.Mehtiyev bölüyün hərbi qulluqçularından leytenant Bəylər Əliyevin, gizir Nicat Musayevin, baş çavuş Canəli Quliyevin, baş əsgər Məhəmməd Qabilovun, əsgərlər Qəhrəman Qəhrəmanlının və Əziz Qasımzadənin digər yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

**kapitan Nigar Ağayeva**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2024/2025-ci TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI



Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kq-dək – 10 dəfə və çəkisi 80 kq-dan yuxarı – 8 dəfə, qaçış – 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə, qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi – 20 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi – 20 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək, onlar Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2024-cü ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmir.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, R.Hüseynov küçəsi, 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);

– yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Məktəbə namizədlərin ərizə və sənədlərinin qəbulu 2024-cü il mart ayının 1-dən aprel ayının 20-dək (bazar və bayram günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcəkdir.

**Məlumat üçün əlaqə telefonları:**
**(012) 560-27-00; (012) 513-23-06; (012) 590-65-07.**

# XİDMƏTİ İTLƏRİN TƏLİMİ VƏ XÜSUSİ HAZIRLIĞI DİQQƏTDƏ SAXLANILIR



Daxili Qoşunların qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün xidməti itlərdən geniş istifadə olunur.

67987 saylı hərbi hissədə xidməti ezamiyyət zamanı xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması, sağlamlıqlarının qorunub saxlanılması haqqında daha geniş məlumat əldə etmək məqsədilə qoşunların xidməti itlərin yetişdirmə məntəqəsində oldum. Məntəqənin ərazisinin təmizliyi və gigiyena qaydalarına ciddi riayət olunması məntəqə rəisinin və burada xidmət edən hər bir hərbi qulluqçunun diqqət yetirdiyi məsələlərdəndir.

Xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi-müəllim mayor Pərviz Əliyev xidmətin təşkili barədə məlumat verdi. Məntəqədə hazırda alman ovçarkası və Belçika malinuası cinsinə



mənsub 26 baş xidməti itin saxlanıldığını və onlardan müxtəlif profillər üzrə istifadə edildiyini qeyd etdi. Məntəqə rəisi onu da əlavə etdi ki, itlərin təlimi böyük bacarıq və təcrübə tələb edir. Hər itin öz təlimçisi var. Təlimçi hər gün itlərin qidasına, təmizliyinə xüsusi diqqət yetirir. İtlə təlimçisinin bir-birinə adaptasiyası da mühüm məsələdir.

Məntəqədə olan xidməti itlərdən müxtəlif istiqamətlərdə - post-patrul xidmətinin aparılması, qarovul və mühafizə xidməti, kütləvi iğtişaşların qarşısının alınması, silahlı cinayətkarların axtarılması və tutulması, partlayıcı maddələrin və silah-sursatın tapılması üzrə hazırlanaraq təlimlər keçirilir. Həmçinin beynəlxalq əhəmiyyətli tədbirlərdə də xidməti itlərdən geniş istifadə olunur.

Bundan əlavə, günün nizam qaydalarına uyğun olaraq xidməti itlərə iki dəfə qulluq göstərilir. Göstərilən qulluğa əsasən xidməti itlərin yemlənməsi, suvarılması, gəzintinin təşkil olunması, daranması və s. daxildir. Qeyd edək ki, xidməti itlərin sağlamlığının qorunması vacib



şərtdir. Bu baxımdan məntəqədə xidməti itlərin sağlamlığı nəzarətdə saxlanılaraq, profilaktik baytarlıq tədbirləri vaxtlı-vaxtında həyata keçirilir. Hərbi hissənin tibb xidməti tərəfindən müvafiq plana əsasən, həftədə bir dəfə məntəqənin ərazisində ümumi profilaktik-gigiyenik tədbirlər görülür. Bu tədbirlərin yerinə yetirilməsi xidməti itlərin qorunub saxlanılması və həyatı baxımından son dərəcə vacib amillərdir.

Qarşıya qoyulan tapşırıqların xidməti itlər tərəfindən müvəffəqiyyətlə yerinə yetirilməsi onlarla keçirilən təlimlərin keyfiyyətindən birbaşa asılıdır. Bu baxımdan təlimçilərin bilik səviyyələrinin yüksək olması və praktiki təcrübəyə yiyələnmələri başlıca şərtdir.

Hazırlanmış müvafiq proqrama əsasən, təlimçilərin biliklərinin artırılması məqsədilə həftədə 3 dəfə nəzəri, 3 dəfə praktiki olmaqla ixtisas hazırlığı üzrə məşğələlər məntəqə rəisi tərəfindən keçirilir. Bu məşğələlərdə ümumi və xüsusi təlimin metodikası tədris olunur.

Məlumat üçün qeyd edək ki, hərbi hissələrin xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi bölmələrinin heyvan təlimçiləri də ixtisas hazırlığı üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə məntəqədə keçirilən biraylıq təlimlərə cəlb olunurlar. Təlimin sonunda məqbullar qəbul olunur və təlimi uğurla keçənlərə sertifikatlar təqdim edilir. Bir sözlə, məntəqə peşəkar təlimçilərin hazırlanması işində hərbi hissələrə yaxından köməklik göstərir.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### KAAN-ın Türkiyənin Hava Qüvvələrinin istifadəsinə veriləcəyi tarix açıqlanıb

"2028-ci ildən KAAN-ı döyüş təyyarələri parkımıza daxil etməyə başlayacağıq". Ordu.az xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Elazığda keçirilən mitinqdə bildirib.

"5-ci nəsil döyüş təyyarəmiz KAAN səmaya qalxdı. Bu sahədə Türkiyə dünyanın ilk 4 ölkəsi arasında yerini aldı. 2028-ci ildə KAAN-ı döyüş təyyarələri parkımıza daxil etməyə başlayacağıq", - Türkiyə Prezidenti



deyib.

Qeyd edək ki, KAAN Türkiyənin ilk milli döyüş təyyarəsidir. Türkiyə bu təyyarələri ABŞ-ın F-22 və F-35 qırıcılarına alternativ olaraq istehsal edib. Təyyarə fevralın 21-də ilk uçuşunu uğurla həyata keçirib.

## *Həkim məsləhəti*

### DÜNYANIN ƏN ZƏRƏRLİ QİDALARI

Dünyanın ən zərərli qidası insanın orqanlarını çürüdə bilər. Bununla bağlı mütəxəssislər araşdırma edərək insan orqanizminə mənfi təsir göstərən ən zərərli qidalar barədə məlumat veriblər.

Minlərlə resept, dünyanın bir çox yerində istehlak edilən məşhur yeməklər - bütün bunlar arasında bəziləri elə zərərli olması ilə seçilir ki, onları yeyən hər kəsi zəhərləyə bilər. Üstəlik, mətbəximizə daxil olan bu qidalar dünyanın ən zərərli qidaları sırasındadır. Çox sevdiyimiz qidalar əslində dü-



şündüyümüzdən daha çox risk daşıyır.

"Fast food" burgerlər, kartof fri dadlı olsa belə, tərkibindəki natrium, doymuş və əlavə yağlar insan orqanizmi üçün çox zərərlidir. "Fast food" rahat və dadlıdır, lakin yeyiləcək ən qeyri-sağlam qida növlərindən biri hesab olunur. Davamlı yeyilən belə qidalar ürək xəstəlikləri, diabet və piylənməni yaratmağa müvəffəq olur.

"Fast food" hamburgerləri və çizburgerlər həddindən artıq yağ qəbuluna görə ən zərərli qidadır. Tərkibində yüksək miqdarda natrium, yağ və boş kalori olan kartof fri çox məşhur olsa da, ən pis qidalar sırasındadır. Üstəlik, tez-tez hamburger kimi "fast food" məhsulları ilə birlikdə istifadə olunur.

Belə zərərli qidalardan uzaq durmaq həm orqanizm, həm də ümumiyyətlə, sağlamlıq üçün faydalıdır.

**AZƏRTAC**

## Allah rəhmət eləsin

67987 saylı hərbi hissənin komandanlığı mayor Valeh Mənsimova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000